**Azərbaycan Respublikası**
**Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 301 "23" 12 2016-cı il

**Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasının təmin edilməsi tədbirləri haqqında**

"Azərbaycan Respublikasında həqiqi hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununa, "Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 dekabr 2016-cı il tarixli 2491 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.4-cü, 3.15.5-ci bəndlərinin tələblərinə əsasən

**q ə r a r a a l ı r a m:**

1. 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Rayon Çağırış Komissiyası yaradılsın:

| | | |
|---|---|---|
| N. Rəhimov | – | Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsinin rəisi, polkovnik-leytenant, komissiyanın sədri |
| İ. Süleymanov | – | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, komissiyanın üzvü |
| O.Süleymanlı | – | Rayon Polis İdarəsinin rəis müavini, komissiyanın üzvü |
| Q. Bayramov | – | İctimaiyyət nümayəndəsi, Rayon Gənclər və İdman İdarəsinin rəisi, komissiyanın üzvü |
| Ş. Əkbərova | – | Hərbi həkim komissiyasının sədri, komissiyanın üzvü |
| X.Salehova | – | Həkim komissiyasının katibi, komissiyanın üzvü |
| Ə. Nayıbov | – | Terapevt, komissiyanın üzvü |
| Ü.İsmayılov | – | Cərrah, komissiyanın üzvü |

| | | |
|---|---|---|
| T. Paşayev | – | Nevropatoloq, komissiyanın üzvü |
| M.Turabov | – | Dəri-zöhrəvi həkim, komissiyanın üzvü |
| Ə. Bayramlı | – | Otorinolarinqoloq, komissiyanın üzvü |
| E.Əliyeva | – | Psixiatr, komissiyanın üzvü |
| N.Ramazanova | – | Oftalmoloq, komissiyanın üzvü |
| M.Hüseynov | – | Stomatoloq, komissiyanın üzvü |
| A.Cəfərova | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |
| H.Mürvətova | – | Köməkçi tibb bacısı, komissiyanın üzvü |

3. Rayon çağırış komissiyasına tapşırılsın:

3.1 Çağırış yaşlı vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmasını, tibbi şəhadətləndirilməsini və onların hərbi hissələrə göndərilməsini təmin etsin;

3.2 Müddətli həqiqi hərbi xidmətə yararlığı yoxlanılmaqdan ötrü vətəndaşların rayon çağırış məntəqəsinə mütəşəkkil gəlişini təmin etsin;

3.3 Rayon çağırış məntəqəsini lazımi avadanlıqlarla təchiz edilməsini, lazımi sayda həkim, texniki işçi və məsul şəxslərin bu mühüm tədbirlərdə iştirakını təmin etsin;

3.4 Çağırışçıların müddətli həqiqi hərbi xidmətə təntənəli surətdə yola salınmasını təşkil etsin;

3.5 Müddətli həqiqi hərbi xidmətə çağırılmış vətəndaşların ailələrinə qayğı göstərilməsini və bu ailələrin güzəştləri haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üçün lazımi işlər həyata keçirilsin;

4.0 Binəqədi Rayon Polis İdarəsinə, İdarənin 4-cü, 5-ci, 6-cı, 7-ci və 40-cı Polis Bölmələrinə tapşırılsın ki, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışını həyata keçirməkdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinə müvafiq köməkliklər göstərsinlər.

4.1 Müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin axtarışı həyata keçirilsin, çağırış məntəqəsinə ictimai asayişin təmin olunması üçün lazımi sayda polis əməkdaşları ayrılsın.

5. Bakı şəhəri 6 saylı BŞX-nın baş həkimi N.Məmmədova tapşırılsın:

5.1 Çağırış komissiyasının tərkibinə salınmış həkim mütəxəssislərin və orta tibb işçilərinin komissiyanın işində iştirak etmələrini təmin etsin;

5.2 Vətəndaşların tibbi şəhadətləndirilməsinin təmin edilməsi üçün rayon çağırış məntəqəsini zəruri olan alətlər, tibbi və təsərrüfat əmlakı ilə təchiz etsin;

5.3 Rayon çağırış komissiyasının göndərişinə əsasən çağırışçıların flüoroqrafiya, labarotor, EKQ və USM müayinələrinin aparılmasını təmin etsin.

6. Rayon çağırış məntəqəsinin qəsəbə nümayəndəlikləri və başqa təşkilatlarla etibarlı və fasiləsiz telefon rabitəsi ilə təmin olunması Binəqədi rayon Telefon Qovşağına həvalə edilsin.

7. Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinə tapşırılsın ki, rayon çağırış məntəqəsinin ərazisində lazımi sanitar qaydalarının qorunmasını təmin etsin.

8. Rayon ərazisində yerləşən idarə müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın ki, təsdiq edilmiş cədvələ əsasən rayon çağırış komissiyasının işlədiyi müddət ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinə təqdim etdiyi tələbnamələrin əsasında rayon çağırış məntəqəsinə lazım olan sayda avtobus və digər nəqliyyat vasitələri ilə təmin etsinlər.

9. Rayon Gənclər və İdman İdarəsinin rəisi Q.Bayramova tapşırılsın ki, çağırışçılar arasında vətənpərvərlik hisslərinin aşılanmasında, müstəqil Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün qorunması işində lazımi izahat işlərinin aparılmasını təşkil etsin.

10. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti icra edən, birinci müavin** **İlqar Süleymanov**

SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**